# Yenilənmiş 10 manatlıq pul nişanı dövriyyəyə buraxılib

Azərbaycan Respublikası Mərkəzi Bankı yenilənmiş 10 manatlıq pul nişanını dövriyyəyə buraxır.

Bankdan AZƏRTAC-a bildirilib ki, yenilənmiş 10 manatlıq pul nişanı martın 18-dən tədavülə buraxılır. Bu pul nişanı hazırda tədavüldə olan 10 manatlıq pul nişanı ilə paralel olaraq dövriyyədə olacaq və hər iki pul nişanı tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək.

Mərkəzi Bank tərəfindən dizayn mövzusu “Azərbaycan tarixi”nə həsr olunmuş 10 manatlıq pul nişanının təkmilləşdirilməsi və mühafizə elementlərinin müasirləşdirilərək daha yüksək standartlara uyğunlaşdırılması həyata keçirilib. Yenilənmiş 10 manatlıq pul nişanında əsas dizayn elementləri (İçərişəhərin və Qız qalasının sxematik təsviri, Azərbaycanın xəritəsi və Avropaya inteqrasiya, bir sıra milli xalça naxışları) saxlanılıb.




Mühafizə sistemlərinə gəldikdə isə, mövcud 10 manatlıqdan fərqli olaraq, yeni pul nişanında su nişanı kimi Azərbaycanın dövlət gerbi təsvir olunub.

Pul nişanının ön tərəfində Qız qalasının təsvirini, hərəkət edən dalğaları və rəngi dəyişən nominalı əks etdirən 3D effektli yeni holoqram (LEAD) yerləşir. Holoqramın müxtəlif hissələrində rəngi dəyişən minimətnlər və nominalın rəqəmləri görünür. Eyni zamanda, banknotun ön tərəfində İçərişəhərin qala divarlarını əks etdirən, rəngi yaşıldan göyə dəyişən, 3D hərəkət və dinamik işıq effektləri saçan möcüzəli boya (SPARK LİVE®) yerləşir. Pul nişanının kənarlarında görmə qüsuru olan insanlar üçün qabarıq xətlərdən ibarət tanınma elementi əks olunur.

Pul nişanının arxa tərəfində isə üzərində işıqda görünən “10” rəqəmi və “AMB” yazısı olan pəncərə tipli, rəngi yaşıldan göyə dəyişən yeni mühafizə sapı (Rolling Star®) yerləşir. Eyni zamanda, üzərində “10 AZN” yazıları olan sayrışan bənövşəyi və qızılı rəngli zolaqlar əks etdirilib.

Azərbaycan.- 2019.-19 mart.- S.6.